# Ermənistan siyasi iradə nümayiş etdirməli, konstruktiv mövqe sərgiləməlidir

"Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə mühüm sənədlər imzalanıb. Bu sənədlər arasında Azərbaycan ilə ABŞ arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsini nəzərdə tutan qarşılıqlı Anlaşma Memorandumu, həmçinin üçtərəfli Birgə Bəyannamə xüsusi əhəmiyyət daşıyır".



Bunu AZƏRTAC-a açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı mütəxəssisi Sultan Zahidov bildirib.

Onun sözlərinə görə, səfər iki mühüm aspektdən önəmli idi. Birincisi, Azərbaycan-ABŞ əlaqələrinin inkişaf etdirilərək yeni mərhələyə çatdırılmasıdır. Prezident İlham Əliyevin vurğuladığı kimi, imzalanan sənədlər iki ölkə münasibətlərində yeni səhifə açır. Əvvəlki Bayden-Blinken administrasiyası dövründə erməni diasporasının təsiri ilə yürüdülən ermənipərəst siyasət ikitərəfli münasibətlərdə problemlər yaratmışdı. Donald Tramp Administrasiyası isə həmin siyasətin yanlışlığını görərək onu dəyişdirmək üçün addımlar atdı. Bu çərçivədə Prezident İlham Əliyevə məktublar göndərildi, telefon danışıqları aparıldı, Tramp tərəfindən 28 Mayda təbrik ünvanlandı və administrasiya nümayəndələrinin Bakıya səfərləri baş tutdu.

Sultan Zahidov bildirib ki, Tramp Baydendən fərqli olaraq Qafqazın və Azərbaycanın strateji əhəmiyyətini dərindən dərk edir və bu səbəbdən qərəzsiz, konstruktiv mövqe nümayiş etdirir. Vaşinqton görüşü həm də Cənubi Qafqazda sülh və sabitlik baxımından mühüm addımdır. Lakin bu görüşün əsasında 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı Zəfər dayanır. Məhz həmin Qələbə bölgədə yeni geosiyasi reallıqlar yaratdı, Ermənistanın Rusiyadan asılılığının azalmasına və sülh üçün zəmin formalaşmasına səbəb oldu.

Politoloq əlavə edib ki, görüş zamanı Zəngəzur dəhlizi ("Tramp yolu") ilə bağlı vacib razılaşma əldə olunub. Bu layihə Azərbaycanın Naxçıvanla maneəsiz əlaqəsini təmin etməklə yanaşı, Türkiyəni Qafqaz və Mərkəzi Asiya ilə, Avropanı isə Çinlə birləşdirəcək böyük nəqliyyat xəttinin mühüm hissəsidir.

O, həmçinin vurğulayıb ki, imzalanan sənədlərin tam icrası üçün Ermənistan siyasi iradə nümayiş etdirməli, konstruktiv mövqe sərgiləməli və Konstitusiya dəyişiklikləri həyata keçirməlidir. Bu dəyişikliklər çərçivəsində Azərbaycana qarşı ərazi iddiaları konstitusiyadan çıxarılmalıdır.

Sultan Zahidovun sözlərinə görə, Vaşinqton görüşü həm də Azərbaycanın Zəfərini və güclənməsini həzm edə bilməyən qüvvələrə, o cümlədən Fransa Prezidenti Makrona, Avropa İttifaqına və Avropa Parlamentinə ciddi mesaj oldu. Bu razılaşma ABŞ-nin Azərbaycanın yanında olduğunu və ölkənin yaratdığı yeni geosiyasi reallıqları tanıdığını göstərdi.

Politoloq yekun olaraq bildirib ki, Vaşinqtonda imzalanan razılaşma destruktiv qüvvələrin Azərbaycanı təcrid etmək planlarının iflasa uğradığını təsdiqləyir.

Azərbaycan. - 2025.- 13 avqust (№168).- S.8.